**İki sahil.-**2024.-12 iyun.-№104.-S.6.

**Şanlı tariximizin nəsillərə bir əsrlik əmanəti**

**Mehriban Sultan,**
AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru,
Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti

Azərbaycanın qədim diyarı, dilbər guşəsi Naxçıvanın çoxəsrlik tarixində gərgin hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi olaraq yaradılan muxtar respublikanın bir əsrlik tarixinin xüsusi yeri vardır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixli Sərəncamı ilə bu yubiley möhtəşəm şəkildə qeyd olunmaqdadır. Həmin tarixi sənəddə Naxçıvanın əsrlər boyu Azərbaycanın ictimai-siyasi, iqtisadi, elmi-mədəni həyatında müstəsna layiqli yer tutmasından, onun işğala, müstəmləkəçiliyə qarşı mübarizə tarixindən danışılır. Vaxtilə qəhrəman yerli əhalinin bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarması, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə cəsarətli addımlar atması müstəqilliyin, milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq kimi qiymətləndirilir. Sərəncamda Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən geniş bəhs olunur.

Burada bir zəruri məsələni də qeyd edək ki, muxtar respublikanın 100 illik yubileyi mühüm əlamətdar tarixi-siyasi dövrə təsadüf etməsi ilə səciyyələnir. Belə ki, Azərbaycan 2020-ci ildə işğalçı Ermənistanın təhrik etdiyi Vətən müharibəsini tarixi ədaləti bərpa etməklə, 30 illik erməni işğalına son qoymaqla – şanlı Zəfər ilə sona çatdırdı. Bu, ermənilərin birdəfəlik, özü də təkcə hərbi deyil, həm də siyasi-ideoloji məğlubiyyəti demək idi. Qeyd etmək yerinə düşər ki, Ali Baş Komandan xalqa qələbə müjdəli müraciətindən başlayaraq bu günə kimi İkinci Qarabağ müharibəsində igid naxçıvanlıların da fəal iştirak etdiklərini, şəhidlər verdiklərini, böyük fədakarlıq göstərdiklərini ehtiramla xatırlayır və bu bəhs etdiyimiz Sərəncamda da əksini tapıb. Bu qələbə eyni zamanda erməniləri ən iti "iştah dişi" olan Naxçıvandan əllərini birdəfəlik üzməyə məcbur edən tarixi Zəfər idi.

Yüzillik yubiley həm də ona görə mühüm bir tarixi dövrə təsadüf edir ki, bir əsrdən çox tarixə malik, böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin məntiqi nəticəsi olan, Naxçıvanın beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit edən Qars müqaviləsi Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ilə yeni siyasi məna və əhəmiyyət qazanmışdır. Qars müqaviləsindən 100 il sonra – 2021-ci il iyunun 15-də Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsi iki dost və qardaş ölkənin Qars müqaviləsinə sadiqliyini bir daha isbat etdi, Qars müqaviləsinə istinad edilən Şuşa Bəyannaməsi iki dövlət arasındakı sarsılmaz müttəfiqliyin, əbədi sülh və sabitliyin təminatı kimi Naxçıvanın da gələcək müdafiəsinə və inkişafına etibarlı zəmanətdir. Lakin təəssüf ki, bu gün də "Unitar dövlətin tərkibində muxtariyyətin olması düzgün deyil", "Şuşa Bəyannaməsi imzalandıqdan sonra Qars müqaviləsi hüquqi əhəmiyyətini itirir və Naxçıvanın muxtariyyət statusuna zərurət qalmır" kimi populist çağırışlarla ictimaiyyəti çaşdıranlar, onilliklər boyu məhz muxtariyyətin ləğvinə nail omaqla Naxçıvanı işğal etməyə can atan ermənilərin dəyirmanına su tökənlər vardır. Ölkə başçısının "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı bütün bu məsələlərə aydınlıq gətirməklə muxtariyyət statusunun tarixi-siyasi əhəmiyyətini bir daha təsdiqlədi. Bu tarixi Sərəncam Naxçıvanın Ümummilli Lider Heydər Əliyev siyasəti işığında, bu siyasətin layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir inkişafını səciyyələndirmək baxımından da çox mühüm əhəmiyyətə malikdir.

Ölkə başçısının rəhbərliyi, Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yüksək təşkilatçılığı ilə bu yubiley Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi qeyd edilir. Naxçıvan Muxtar Respublikasının 100 illik yubiley loqotipinin, bununla bağlı veb sayt, poçt markası və posterlərin hazırlanması, Azərbaycan Milli Kitabxanasında yaradılan "Naxçıvan Muxtar Respublikası-100" adlı elektron məlumat bazasının istifadəyə verilməsi, Azərbaycan Milli Elmlər Akademiyasının, AMEA-nın Naxçıvan Bölməsimim, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikasının yaradılması: tarix və müasirlik" mövzusunda respublika elmi konfransının keçirilməsi, digər elmi, mədəni-kütləvi tədbirlər dediklərimizə əyani sübutdur. Şərqin qapısı ulu Naxçıvanda muxtar respublikanın yaradılmasının 100 illiyininin Türkiyənin Kayseri şəhərində, Qazaxıstanın Türküstan vilayətində təntənəli şəkildə qeyd olunması isə bu əlamətdar hadisənin təkcə Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti üçün deyil, bütövlükdə türk dünyası üçün əhəmiyyətini səciyyələndirir.

Bu günlərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin, AMEA Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin

təşkilatçılığı ilə keçirilən "Naxçıvan Muxtar Respublikasının yaranması: keçmişdən bu günə və sabaha" mövzusunda elmi konfrans isə elmi, siyasi, tarixi əhəmiyyəti ilə yüzilliyin möhtəşəm zirvə tədbiri kimi yadda qaldı. Konfransın Naxçıvan Dövlət Universitetində keçirilən açılış mərasimi və plenar iclasındakı çıxışlar muxtariyyət tarixinə düz bir əsr sonra, müasir müstəqil Azərbaycanın inkişaf kontekstində yenidən nəzər salınmaqla muxtar diyarımızın ölkəmizin dövətçilik tarixindəki, ictimai-siyasi, iqtisadi həyatındakı rolunu, geostrateji əhəmiyyətliliyini bir daha təsdiq etdi.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında Naxçıvanın inkişafında Ulu Öndərin mühüm xidmətləri bir daha dərin minnətdarlıq, ehtiram duyğusu ilə xatırlandı. Akademikin Ulu Öndərin həyat və fəaliyyətinin Naxçıvan mərhələsi, nəinki Naxçıvanı məhv olmaq təhlükəsindən xilas etmək, Azərbaycana əbədilik müstəqillik qazandırmaq məqsədilə taleyüklü qərarların qəbul edilməsi ilə bağlı fikirləri o dövrün şahidləri olan konfrans iştirakçılarının xəyalında yenidən canlandı.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov isə 100 illik möhtəşəm tarixə malik muxtar respublikanın sosial-iqtisadi inkişaf tarixi ilə bağlı bir sıra məqamlara toxunaraq regionda aqrar sənayenin inkişafı, logistik potensialının yerli səviyyədən regional səviyyəyə qaldırılması, "yaşıl enerji" və turizm potensiallarının inkişaf etdirilməsi, Zəngəzur dəhlizinin açılması ilə Şərq-Qərb Nəqliyyat Dəhlizinin və ümumilikdə, kontinentin logistik marşrutlarının yenidən formalaşdırılması kimi inkişaf prioritetlərindən danışdı.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev muxtar respublikanın yeni mərhələdə özünün fərqli inkişaf dövrünü yaşamasına diqqət çəkdi. Vurğulandı ki, yarım əsrdən çox tarixə malik Naxçıvan Dövlət Universiteti Ümummilli Liderin ideyaları və tövsiyələri əsasında inkişaf etməkdədir.

AMEA-nın prezidenti İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının keçdiyi şərəfli tarixi yola və müasir inkişaf səviyyəsinə bir daha işıq saldı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın çoxəsrlik dövlətçilik tariximizdə mühüm yer tutduğunu diqqətə çatdıran AMEA rəhbərinin təqdim etdiyi Atabəylər dövləti, Naxçıvan xanlığı, Araz-Türk Cümhuriyyəti, Naxçıvan MSSR-sı yaradılması ilə bağlı tarixi faktlar konfrans iştirakçılarında böyük maraq doğurdu.

Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru Famil Mustafayev isə Naxçıvan Muxtar Respublikasında yüksəkixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində əldə olunan nailiyyətləri – bu diyarda 2019-2024-cü illər üzrə elmin inkişaf tempini əks etdirən statistik məlumatları təqdim etdi. Ali Attestasiya Komissiyası sədrinin muxtar respublikada fəaliyyət göstərən bir qrup tədqiqatçıya yeni elmi dərəcə və adlarını təsdiq edən diplomları Naxçıvanda şəxsən təqdim etməsi isə yubiley tədbirinə bayram ovqatı qatmaqla Naxçıvanda elmin ən müxtəlif sahələrinin dinamik inkişafı üçün böyük stimul oldu. Plenar iclas digər maraqlı çıxışlardan sonra əsl bayram təntənəsi ilə – Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecinin xalq çalğı alətləri orkestrinin möhtəşəm bayram konserti ilə yekunlaşdı.

Konfransın bölmə iclasları Naxçıvanın tarixinin, mədəniyyətinin, sosial-iqtisadi və mədəni-mənəvi inkişafının tədqiqi və təbliği məsələlərinə dair, eləcə də Ümummilli Lider Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyəti, muxtar diyarın sosial-iqtisadi, mədəni-mənəvi inkişafı, müstəqilliyin ilk illərində Naxçıvanın erməni təcavüzündən qorunmasında və blokadadan çıxarılmasındakı tarixi xidmətləri, Naxçıvanda elm və təhsilin inkişafı strategiyası, Prezident İlham Əliyevin Naxçıvanın çoxcəhətli inkişaf etdirilməsi, Naxçıvanın coğrafi ərazi etibarilə Azərbaycana birləşdirilməsi və itirilmiş ərazilərinin bərpası istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasət ilə bağlı yeni maraqlı elmi tədqiqatların təqdimatı ilə yaddaqalan oldu.